# Xoş gəlmişsən, Yeni il!

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Qəbələ rayon sakinlərinə

## TƏBRİKİ

Artıq yola saldığımız 2019-cu il tarixə qovuşur. Bu il respublikamızın, eləcə də rayonumuzun hərtərəfli inkişafı üçün uğurlu, yaddaqalan il olmuş, qarşıya qoyulmuş bütün vəzifələr müvəffəqiyyətlə icra edilmişdir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik rəhbərliyi və uzaqgörən siyasəti sayəsində həyata keçirilən geniş miqyaslı islahatlar, yeni infrastruktur layihələri, aparılan abadlıq, tikinti-quruculuq və bərpa işləri, hərtərəfli sürətli iqtisadi tərəqqi hər birimizdə fərəh və qurur hissi doğurur. İldən-ilə artan uğurlarımız, ölkəmizin sürətli inkişafı ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf xəttinin ölkə Prezidenti tərəfindən böyük məharətlə davam etdirilməsinin məntiqi nəticəsidir.

Azərbaycanda, o cümlədən Qəbələ rayonunda aparılan geniş yenidənqurma, abadlıq işləri, rayonun turizm infrastrukturunun genişləndirilməsi, iqtisadiyyatın inkişafı sahəsində görülən tədbirlər qısa müddətdə rayonun simasını tamamilə dəyişmişdir.

Bütün bunlar rayonda həyat səviyyəsinin yüksəlməsinə xidmət etməklə yanaşı, həm də rayonun əhalisinə rifah və mənəvi rahatlıq gətirir.

Beynəlxalq mədəniyyət mərkəzinə çevrilməkdə olan Qəbələnin son illər yüksək səviyyəli beynəlxalq tədbirlərə, festivallara, rəsm sərgilərinə və idman yarışlarına ev sahibliyi etməsi rayonumuzun dünya miqyasında tanınmasını təmin edir.

Möhtərəm Prezidentimizin rayonumuza göstərdiyi qayğı və diqqət, aparılan sistemli iş, inkişafın yeni hədəflərinin müəyyən edilməsi onu deməyə əsas verir ki, 2020-ci ildə nailiyyətlərimiz daha da artacaq, respublikamızın ecazkar bölgəsi olan Qəbələ daha da abadlaşacaq, əhalinin rifahı gündən-günə yüksələcəkdir.

Hörmətli qəbələlilər, sizə rayonumuzun sürətli sosial-iqtisadi inkişafı naminə qarşıda duran mühüm vəzifələrin həyata keçirilməsində yeni-yeni uğurlar arzulayır, sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramları münasibətilə ürəkdən təbrik edirəm. Hər birinizə uzun ömür, cansağlığı, xoş əhvali-ruhiyyə, əmin-amanlıq, ruzi-bərəkət və firavanlıq diləyirəm.

## 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il şənlikləri Qəbələdə böyük coşğu ilə keçirilib

31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə rayonun yaşayış məntəqələrində, idarə və



müəssisələrdə təhsil, səhiyyə və mədəni-maarif ocaqlarında bayram tədbirləri keçirilmiş, teatrlaşdırılmış şənliklər təşkil olunmuşdur.

Heydər Əliyev Mərkəzində uşaq və ailələrə dəstək mərkəzi ilə birlikdə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə tədbir keçirilmişdir. Tədbirdə çıxış edənlər Dünya Azərbaycanlılarının Həmrəylik Gününün yaranma tarixindən danışmışlar. Bildirilmişdir ki, dünya azərbaycanlılarını həmrəyliyə səsləyən bu tarixi günün qeyd olunması ulu öndər Heydər Əliyevin xidmətidir.

Məhz ulu öndər 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən 31 dekabrın Dünya Azərbaylılarının Həmrəylik Günü kimi qeyd olunması barədə qərarın qəbul edilməsinə nail olmuşdur.

Tədbir balacaların ifasında mahnı və rəqslərlə davam etmiş, şaxta babanın gəlişi böyük sevinclə qarşılanmışdır.

Sonda körpələrə bayram sovqatı paylanmışdır.



* * *

Qəbələ Mədəniyyət Mərkəzində keçirilən bayram tədbirində ilk öncə Azərbaycan Respublikasının Preizdenti cənab İlham Əliyevin dünya azərbaycanlılarına ünvanladığı təbrikin mətni səsləndirilmişdir.

Bayram şənliyinin aparıcıları 2019-cu ildə ölkəmizdə ictimai-siyasi, sosial-iqtisadi sahələrdə əldə olunan uğurlar barədə geniş məlumat vermişlər.

Tədbir könülləri oxşayan şən melodiyalarla, şeirlərlə müşayət olunmuşdur.

Şaxta baba və Qar qızın gəlişi bayram şənliyinin balaca iştirakçılarının böyük sevincinə səbəb olmuşdur. Şaxta baba balacalara hədiyyələr paylamışdır.

* * *

Qəbələ şəhərində 3-12 yaşlı fiziki qüsurlu uşaqlar üçün açılmış Günərzi Qayğı Mərkəzində Qızıl Aypara Cəmiyyəti rayon şöbəsinin, mədəniyyət mərkəzinin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının Həmrəylik Gününə və Yeni ilə həsr olunmuş bayram şənliyi keçirilmişdir.

Uşaqların da iştirakilə hazırlanmış bədii proqram böyük maraqla izlənilmişdir.

Rayon təhsil şöbəsinin, mədəniyyət mərkəzinin, Kapitalbankın Qəbələ Filialının, Qızıl Aypara Cəmiyyəti rayon şöbəsinin rəhbərləri bayram tədbirində iştirak etmiş, uşaqlara hədiyyələr paylamışlar.

Rayonun məktəblərində, uşaq bağçalarında keçirilən bayram tədbirləri də maraqlı və yaddaqalan olmuşdur.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə tədbirlər yanvarın 7-dək davam edəcəkdir.

**"Qəbələ"**

## Yeni il bayramı

Yeni il bayramı - dünyanın müxtəlif xalqları üçün ənənəvi bayrama çevrildiyi kimi,Azərbay-



canda da insanların məişətinə daxil olub. Bəzi fərziyyələrə görə Yeni ili ilk dəfə qədim çinlilər qeyd ediblər. Digər mənbələrdə bu, qədim germanlar və romalıların adı ilə bağlanır.

Bu bayramın yaranmasının azı 25 əsrlik tarixi var. İlin dəyişməsini bayram etmək adəti ilk dəfə qədim Mesopotamiyada yaranıb. Tarixçi alimlərin fikrincə eramızdan əvvəl IV minilliyin sonunda Şumer, Babilistan, Assuriya kimi mədəniyyət mərkəzlərində Yeni ilin gəlişi ilk dəfə bayram edilib.

Martın axırında Dəclə və Fərat çaylarında suyun səviyyəsi artanda əkin-biçin işləri başlayarmış. İnsanlar yeni ilin gəlişini də elə o zaman qeyd etmişlər.

Təntənəli mərasimlər 12 gün ərzində davam edərmiş. Xeyir tanrısı Mərdükün şər qüvvələr və ölüm üzərində hakimiyyəti başlayarmış. Bütün məhkəmə işləri, cəzalar təxirə salınarmış.

Həmin dövrə aid gil kitabələrdən biri üzərində yazılmış mətnə görə, bu bayramda "qul ağaya çevrilərmiş". Yeri gəlmişkən, "Karnaval" sözü babil dilindən tərcümədə "gəmi-dəniz" deməkdir. Bu da Mərdükün Dəclədə üzməsilə bağlı ayinlərdən gələn ifadədir.

Bayram günlərindən birində Mərdükün dəhşət ilahəsi, ilanbaşlı Tiamatla döyüşü səhnəsi canlandırılarmış. Nəticədə, əlbəttə ki, Mərdükün qalib gələrmiş. Babilistan əsirliyində olan yəhudilər Yeni il bayramı ənənəsini babillərdən öyrənərək sonradan onu yunanlara ötürüblər. Yunanlar vasitəsilə isə bu ənənə Qərbi Avropaya yayılıb.

Başqa bir mənbəyə görə, Qədim Şərqdə hələ İran dövlətinin yenicə yaranmağa başladığı dövrdə iranlıların artıq təqvimləri var imiş. Onlar bilirmişlər ki, ilin bir günü var ki, həmin gün ən qısa gündüz ən uzun gecəylə növbələşir. Və bu gündən sonra həyatverici Güneş səmada get-gedə daha çox bərq vurur, təbiət oyanmağa başlayır və həyat cansıxıcı qış - yəni ölüm üzərində qələbə çalır.

Qədim hindlilər və farslar müasir təqvimlə dekabrın 22-nə təsadüf edən həmin günü "Güneş qapısı" adlandırarmışlar. Sonralar həmin gün Güneş Tanrısı Mitranın doğum günü kimi qeyd edilməyə başlayır.

Möhtəşəm İran dövlətini diz çökdürən romalılar Mitranı da özününküləşdirirlər.Qədim Romada təqvim aylarındakı günlərin sayı müxtəlif idi. Lakin Yeni il həmişə yanvarın 1-i gəlirdi və Mitranın doğum günü - İşığın Qaranlıq üzərində qələbəsi günü də bununla üst-üstə düşürdü.

Əsrlər keçdi. Roma dövləti rəsmi olaraq xristian dövləti kimi tanındı. Və məlum oldu ki, İsa Məsihin doğum günü də elə dekabrın son günlərinə təsadüf edir. Beləcə bu bayram həm yeni ilin gəlişini, həm həyatın ölüm üzərində qələbəsini, həm də Milad Gününü özündə birləşdirmiş oldu.